BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# HÜQUQ

## TÜRKİYƏ RESPUBLİKASININ 2004-CÜ İL CƏZA QANUNUNUN ÜMUMİ HİSSƏSİNİN ƏSAS CƏHƏTLƏRİ HAQQINDA

**F.Y.SƏMƏNDƏROV**
***Bakı Dövlət Universiteti***

1. Türkiyə Respublikasının hüququ Roma-alman hüquq sisteminə əsaslanır. Respublikanın hazırda qüvvədə olan Cəza Qanunu ölkənin sayca ikinci cəza qanunu olub, 2004-cü il sentyabrın 26-da qəbul edilmiş və 2005-ci il aprelin 1-də qüvvəyə minmişdir. Bundan əvvəl qüvvədə olmuş birinci Cəza Qanunu 1926-cı il martın 1-də qəbul edilmiş və səksən ilə yaxın bir müddətdə ölkədə cinayət və cəza məsələlərini tənzimləmişdi.

Türkiyənin 2004-cü il Cəza Qanunu iki kitab, 6 bölmə, 36 fəsil və 345 maddədən ibarətdir. Qanunun birinci kitabına Ümumi hissəyə aid maddələr toplanmışdır və o, 2 bölmə, 5 fəslə bölünən 75 maddəni özündə birləşdirir. Türkiyənin Cəza Qanununun ikinci kitabında Xüsusi hissənin məsələləri əhatə olunmuşdur. İkinci kitabda ölkədə cinayət sayılan əməllərin dairəsi müəyyən edilmişdir. Ona Xüsusi hissəyə aid olan, 4 bölmə və 31 fəsildə cəmləşən 230 maddə daxildir.

Qeyd edək ki, Türkiyənin 1926-cı il Cəza Qanununda xətalar haqqında məsələlər də tənzimlənirdi. (Köhnə Cəza Qanunu üç kitabdan ibarət olub, birinci kitab Ümumi hissənin, ikinci kitab Xüsusi hissənin məsələlərini, üçüncü kitab isə xətalara aid məsələləri əhatə edirdi.) Hazırda isə xətalar haqqında 2005-ci il martın 30-da qəbul edilmiş ayrıca qanun («Xətalar Qanunu») qüvvədədir. Bundan başqa, Türkiyədə cəza nəzərdə tutan bir neçə digər qanun da vardır: 10 iyul 1953-cü il tarixli «Odlu silahlar və bıçaqlar, digər alətlər haqqında qanun»; 10 iyul 2003-cü il tarixli «Qaçaqmalçılıqla mübarizə» qanunu; 3 iyun 1986-cı il tarixli «Narkotik maddələr haqqında qanun»; 25 may 2005-ci tarixli «Poçt haqqında qanun» və s.

Türkiyənin yeni Cəza Qanununda mütərəqqi yeniliklərdən biri ölüm cəzasının cəza sisteminə daxil edilməməsidir. Belə ki, ölüm cəzası 14 iyul 2004-cü il tarixli 5218/1-A saylı qanunla Türkiyədə ləğv edilmişdir.

Türkiyənin Xətalar qanununun 2-ci maddəsinə görə xəta dedikdə, törədilməsinə görə inzibati tədbir tətbiq edilməsi nəzərdə tutulan haqsız hərəkət başa düşülür.

2. Türkiyənin qüvvədə olan Cəza Qanununun birinci bölməsində əsas prinsiplərdən və anlayışlardan bəhs edilir. Bu bölmənin birinci fəsli 6 maddədən ibarətdir. Qanunda cinayətə anlayış verilmir. Qanunun 1-ci maddəsində qeyd edilir ki, Cəza Qanununun məqsədi insan hüquq və azadlıqlarını, ictimai sabitliyi və təhlükəsizliyi, hüquqi dövləti, ictimai sağlamlığı və ətraf mühiti, cəmiyyətin əmin-amanlığını qorumaqdan,

cinayətlərin törədilməsinin qarşısını almaqdan ibarətdir. Bu məqsədlərin həyata keçirilməsi üçün qanunda cinayət sayılan əməllərin dairəsi, cinayət məsuliyyətinin əsasları, cəza və təhlükəsizlik tədbirlərinin növləri müəyyən edilir və onlardan vasitə kimi istifadə edilir.

Cəza Qanununun 2-ci maddəsində cəza qanunvericiliyində qanunçuluq prinsipindən bəhs edilir. Orada deyilir ki, qanunun cinayət saymadığı əmələ görə heç kimə cəza verilə bilməz və təhlükəsizlik tədbirləri tətbiq edilə bilməz. Cinayət Qanununda göstərilməyən cəzalardan və təhlükəsizlik tədbirlərindən başqa heç bir cəza və təhlükəsizlik tədbirləri tətbiq edilə bilməz.

Türkiyənin qüvvədə olan cəza qanunvericiliyində cinayət və cəzanı müəyyən edən normaların tətbiqində analogiyaya yol verilmir. Qanunda belə dəyərli göstəriş vardır ki, cinayəti və cəzanı müəyyən edən normalar analogiyaya imkan verəcək dərəcədə geniş şərh (təfsir) edilə bilməz.

Qüvvədə olan cəza qanunvericiliyi törədilən cinayətin ağırlığına uyğun cəza və təhlükəsizlik tədbirlərinin tətbiqini, cinayət törətmiş şəxsə ədalətli cəza təyinini təmin edir.

Türkiyənin qüvvədə olan Cəza Qanunu bir tərəfdən törədilən cinayətə görə cəzanın ədalətlilik prinsipinə uygun olaraq tətbiqini təsbit edir, digər tərəfdən Cəza Qanununun 9 və 10-cu maddələrinin göstərişinə görə Turkiyə vətəndaşı və vəzifəli şəxsinin, Turkiyədən kənarda törədilən cinayətə görə onların məsuliyyətə alınıb-alınmamasından asılı olmayaraq, Türkiyəyə qayıtdıqdan sonra Türkiyədə yenidən mühakimə edilməsini müəyyən edir.

Zənn edirik, qeyd edilən mövqe bütövlükdə bir əmələ görə şəxsin iki dəfə məsuliyyətə alına bilməməsi haqqında müddəa ilə ziddiyyət təşkil edir.

Qanunun 3-cü maddəsində qeyd edilir ki, Cəza Qanununun tətbiqi zamanı irqi, dini, təriqət, milli, cinsi, siyasi və ya digər fikir yaxud düşüncə, fəlsəfi inam, milli və ya sosial mənşə, maddi və digər xüsusiyyətlərə görə ayrı-seçkiliyə yol verilmir.

3. Cəza Qanununun ikinci bölməsi cinayət məsuliyyəti, qəsd və ehtiyatsızlıq kimi məsələləri tənzimləyən normaları müəyyən edir. Qanunda göstərilir ki, cinayət məsuliyyəti fərdi xarakter daşıyır.

Cəza Qanununun 21-ci maddəsinin göstərişinə görə qəsd – şəxsin əməlinin cinayət oldugunu yəqinliklə bilərək və onu arzu edərək həyata keçirməsidir.

Türkiyənin Cəza Qanununda yanakı qəsd də nəzərdə tutulur. Qanunla yanakı qəsdlə törədilən cinayətə görə tətbiq edilən cəzalar düzünə qəsdlə törədilən cinayətə görə tətbiq edilən cəzaların üçdə birindən yarıya qədər azaldılır.

Respublikanın qüvvədə olan Cəza Qanununun mövqeyinə görə ehtiyatsızlıqdan törədilən əmələ görə qanunda xüsusi olaraq göstərilən hallarda məsuliyyət yaranır.

Cəza Qanununda ehtiyatsızlıgın iki növü fərqləndirilir:

1) şəxsin nəticənin baş verəcəyi ehtimalını əvvəlcədən gördükdə (bilincli) belə nəticənin qarşısını alacağına ümid etməsi;

2) şəxsin ehtiyatsızlığın diqqətsizlik növündə kriminal nəticənin baş verəcəyi ehtimalını dərk etməməsi.

Cinayətkarcasına özünə güvənmə növündə ehtiyatsızlıqla əməl

törədildikdə, qanuna görə təyin edilən cəza sanksiyada göstərilən cəzanın üçdə birindən yarıya qədər artırılır.

Türkiyənin yeni Cəza Qanunu ehtiyatsızlığın diqqətsizlik formasında cinayət törədilən hallarda əməli törədənin şəxsiyyəti və ailə vəziyyətinin nəzərə alınaraq onun cəzadan azad edilməsinə imkan verir. Əgər əməl ehtiyatsızlığın özünə güvənmə növündə (şəxs cinayətin nəticəsini ehtimali olaraq gördüyü hallarda) törədilmişdirsə, lakin cinayət törədənin şəxsiyyəti və ailə vəziyyətinə görə cəzanı yüngülləşdirmək zərurəti vardırsa cəza sanksiyada müəyyən edilən cəzanın yarısından altıda birinə qədər azaldıla bilər.

Zənn edirik, Cəza Qanununda ehtiyatsızlığın növləri üzrə törədilən cinayətlərə görə cəzanın fərdiləşdirilməsində qoyulan hədlər ədalətlidir.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının qüvvədə olan 1999-cu il Cinayət Məcəlləsində ehtiyatsızlıqla törədilən cinayətlərə görə cinayətin ehtiyatsızlığın növləri üzrə törədilməsinə fərq qoyulmadan sanksiyalar müəyyən edilmişdir.

Türkiyənin qüvvədə olan Cəza Qanununda öncə qüvvədə olan cəza qanunvericiliyindən fərqli olaraq təqsirin qarışıq forması ilə törədilən cinayətlərə görə məsuliyyət müəyyən edən norma nəzərdə tutulur (maddə 23).

Bir neçə nəfərin ehtiyatsızlıqla törətdiyi cinayətlərə görə hər kəsin öz təqsirinə görə məsuliyyət daşıması fikri ilə ehtiyatsızlıqla törədilən cinayətlərdə iştirakçılığın mümkün olmamasına dair qanunun mövqeyi bir daha bəyan edilir.

4. Cəza Qanununun ikinci fəslində cinayət məsuliyyətini aradan qaldıran institutları tənzim edən normalar nəzərdə tutulur. Bura əmrin icra edilməsi (maddə 24); zəruri müdafiə və son zərurət (maddə 25); hüquqlardan istifadə və zərərçəkənin razılığı (maddə 26); həddin aşılması (maddə 27); işgəncə və əzabvermə, qorxutma və hədəgəlmə (maddə 28); cinayəti ədalətsiz hərəkətə cavab olaraq törətmə (maddə 29) halları aiddir.

Cəza Qanununa görə kriminallığı aradan qaldıran hallarda hədd aşılırsa qanuna əsasən cəza, sanksiyada göstərilən cəzanın altıda birindən üçdə birinə qədər azaldılır. Zəruri müdafiə həddini aşma eyni vaxtda güclü ruhi həyəcan nəticəsində baş verərsə təqsirkar cəzadan azad edilir.

Türkiyənin Cəza Qanununda zəruri müdafiə həddini aşmanın meyarı konkretləşdirilmir.

Cəza Qanununda məsuliyyəti aradan qaldıran institutların tətbiqi üçün kriteriyalar müəyyən edilmişdir. Qeyd edilən halların tətbiqində başlıca olaraq məhkəmə mülahizəsinə geniş yer verilir.

Türkiyənin qüvvədə olan Cəza Qanununda işgəncə və əzab vermə, qorxu və hədə təsiri altında cinayətin törədilməsi məsuliyyəti aradan qaldıran hallar kimi nəzərdə tutulur. Cəza Qanununun 28-ci maddəsinin göstərişinə görə işgəncə və əzaba, real hədə və qorxu yaradan hərəkətlərə məruz qalan şəxs müqavimət göstərmək və xilas olmaq imkanlarına malik olmadıqda və belə vəziyyətdə şəxs cinayət törətməklə xilas olursa – törədilən əməl cinayət sayılmır.

Fikrimizcə, Cəza Qanununun belə mövqeyinə haqq qazandırılmalıdır. Çünki, əzab və işgəncələr, habelə göstərilən real hədə və qorxu yaradan hərəkətlər şəxsin azad davranış variantı seçmək

imkanını aradan qaldırdığı üçün qanun belə vəziyyətdə şəxsin əməlini cinayət saymır.

Türkiyə Cəza Qanununun diqqəti cəlb edən institutlarından biri də «Cinayətin ədalətsiz hərəkətə cavab olaraq törədilməsi»nə görə məsuliyyət məsələsidir. Cəza Qanununun 29-cu maddəsinin göstərişinə əsasən ədalətsiz hərəkətin nəticəsində əmələ gələn hiddət və qəzəbin təsiri altında cinayət törədən şəxsə ağır ömürlük həbs cəzası əvəzinə on səkkiz ildən iyirmi dörd ilə qədər müddətə həbs cəzası, ömürlük həbs cəzası on iki ildən on səkkiz ilədək müddətə həbs cəzası müəyyən edilir. Digər hallarda veriləcək cəza dörddə birdən dörddə üçə qədər azaldılır.

Zənn edirik, cinayətin ədalətsiz hərəkətlərə cavab olaraq törədilməsinə həyatda daha çox rast olunur. Lakin Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsində bu hal hətta məsuliyyəti yüngülləşdirən hallar sırasına belə daxil edilməmişdir.

5. Türkiyənin Cəza Qanununda cinayətə hazırlığa görə məsuliyyət müəyyən edilmir. Cinayətə cəhdə görə, ümumiyyətlə, ömürlük azadlıqdan məhrumetmə cəzası tətbiq edilmir. Bütün digər hallarda isə təyin edilən cəza başa çatmayan cinayətlərə görə nəzərdə tutulan cəzanın dörddə birindən dörddə üçünə qədər azaldılır.

Göründüyü kimi, Türkiyənin Cəza Qanunu cinayətə cəhdə görə məsuliyyət məsələsini daha humanist mövqedən həll edir.

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 63.3-cü maddəsi cinayətə cəhdə görə cəzanın müddətini və ya həcmini başa çatmış həmin cinayətə görə müəyyən edilmiş daha ciddi cəza növünün yuxarı həddinin dörddə üçündən artıq olmamaqla nəzərdə tutur. Respublikanın məhkəmə təcrübəsində cinayətə cəhdə görə başa çatan cinayət barəsində nəzərdə tutulan cəzanın yuxarı həddinin dörddə üçündən artıq olmayan həddə cəza təyin edilir. Qanunun məntiqinə görə bundan da yüngül olan cəza təyin edilə bilər, lakin praktikada buna rast olunmur.

6. Cəza Qanununun 36-cı maddəsi cinayətdən könüllü imtinaya görə məsuliyyəti aradan qaldırır.

Qanunun 36-cı maddəsinin göstərişinə görə həm cinayətə bitməmiş, həm də bitmiş cəhdə yol verən, lakin nəticənin baş verməsinin qarşısını alan şəxsə cəza verilmir. Cinayətə cəhdin bitmiş növünə yol verən şəxsin əməlində başqa cinayət tərkibi yaranarsa, belə əmələ görə şəxs məsuliyyət daşıya bilər. Belə ki, əgər şəxs başqasını öldürmək niyyəti ilə onun həyatına qəsd edirsə, lakin şəxs ölmürsə və ona ağır bədən xəsarəti yetirilirsə, bu vəziyyətdə təqsirkarın yenidən cinayəti başa çatdırmaq imkanı olduğu halda onu başa çatdırmaqdan könüllü imtina edirsə, təqsirkar qəsdən adam öldürməkdən könüllü imtinaya görə məsuliyyətdən azad edilir. Lakin o, baş verən faktiki nəticəyə görə, yəni qəsdən bədənə ağır xəsarət yetirməyə görə məsuliyyətə alınır.

Zənn edirik ki, könüllü imtinaya dair Türkiyə Cəza Qanununun mövqeyi daha ədalətlidir.

7. Cəza Qanununda cinayətin subyektinə dair formal kriteriya da nəzərdə tutulur. Qanunun 31-ci maddəsinin 2-ci hissəsinin göstərişinə görə cinayət törətdiyi vaxt on iki yaşı tamam olmuş, ancaq on beş yaşına çatmamış şəxslər törətdiyi əməlin hüquqi mənasını və doğuracağı nəticəni dərk edə bilmədiyi və ya hərəkətlərini idarə etmək üçün kifayət qədər yetkin olmadığı hallarda cinayət məsuliyyəti daşımırlar.

Qanunun 31-ci maddəsinin göstərişinə görə törətdiyi əməlin hüquqi mənasını və doğuracağı nəticəni dərk edə bildiyi və ya hərəkətlərini idarə etmək qabiliyyətinə malik olduğu halda, həmin şəxslərə ağır ömürlük həbs cəzası əvəzinə on iki ildən on beş ilə qədər müddətə həbs cəzası, ömürlük həbs cəzası əvəzinə doqquz ildən on bir ilə qədər müddətə həbs müəyyən edilir. Digər cəzalar yarıbayarı azaldılır və bu halda təyin edilən həbs cəzası on iki ildən çox ola bilməz.

Cəza Qanununun 31-ci maddəsinin 3-cü hissəsinin göstərişinə görə cinayətin törədildiyi vaxt on beş yaşı tamam olmuş, ancaq on səkkiz yaşına çatmamış şəxslərə ağır ömurlük həbs cəzası əvəzinə on səkkiz ildən iyirmi dörd ilə qədər müddətə həbs cəzası, ömürlük həbs cəzası əvəzinə on iki ildən on beş ilə qədər müddətə həbs cəzası müəyyən edilir. Digər cəzaların üçdə biri azaldılır və bu halda təyin edilən həbs cəzası on iki ildən artıq ola bilməz.

Cəza Qanununun 31-ci maddəsinin göstərişinə görə cinayətin subyekti olmaq üçün təkcə şəxsin 12 yaşına çatması kifayət deyildir, həm də şəxsin yol verdiyi əməlin cinayət xarakterini dərk etməsi və öz hərəkətlərini idarə etmək qabliyyətinə malik olması halı aydınlaşdırılmalıdır. Göstərilən halın aydınlaşdırılması məhkəmə mülahizəsinə aid edilən məsələlərdəndir.

Türkiyə Respublikasının Cəza Qanununun yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə dair müddəaları həm də 21 yaşına qədər kar və lal şəxslərə şamil edilir. Belə ki, Qanunun on iki yaşı tamam olmuş uşaqlarla bağlı müddəaları on beş yaşı tamam olmuş kar və lallar haqqında; on iki yaşı tamam olmuş, ancaq on beş yaşına çatmamış uşaqlarla bağlı müddəaları on beş yaşı tamam olmuş, ancaq on səkkiz yaşına çatmamış kar və lallar haqqında; on beş yaşı tamam olmuş, ancaq on səkkiz yaşına çatmamış şəxslər haqqında müddəaları on səkkiz yaşı tamam olmuş, ancaq iyirmi bir yaşına çatmamış kar və lallar haqqında tətbiq edilir.

8. Türkiyənin yeni Cəza Qanununda cinayətin icraçısının cinayətin törədilməsində rolu və yeri məsələsinə əhəmiyyət verilmir. Ümumiyyətlə, qanunda cinayətin icraçısının anlayışı nəzərdə tutulmur. Həm də yeni Cəza Qanunu cinayətin təşkilatçısını cinayətin iştirakçısının növü kimi tanımır.

Cəza Qanununda cinayətlərin çoxluğu növlərindən yalnız cinayətlərin məcmuyunun adı çəkilir. Qanunun 42-ci maddəsində «birləşmiş cinayət» adı çəkilir. Zənn edirik, qanun bununla mürəkkəb tərkibli cinayətləri ehtiva edir.

9. Türkiyənin qüvvədə olan cəza qanunvericiliyinin üçüncü bölməsi dörd fəsildən ibarətdir. Bu fəsillərdə cəzalar, onların növləri, habelə cinayət məsuliyyətindən və cəzadan azad etmə kimi institutlar nəzərdə tutulur.

Qanunda həbs cəzalarının aşağıdakı növləri fərqləndirilir:

1) ağır ömürlük həbs cəzası;

2) ömürlük həbs cəzası;

3) müddətli həbs cəzası.

Müddətli həbs cəzası bir aydan 20 ilə qədər müddətə müəyyən edilir. Bundan əlavə cəza qanunvericiliyində qısa müddətli həbs cəzası da nəzərdə tutulur. Qısa müddətli həbs cəzası bir il və ya bir ildən az müddətə təyin edilir.

Türkiyənin Cəza Qanununda «şərti məhkum etmə» cəza növü kimi müəyyən edilir. Həm də törədilən cinayətə görə iki il və ya daha az müddətə həbs cəzası təyin edilən şəxslər barəsində şərti məhkum etmə tətbiq edilir.

Cəza Qanununda hüquqlardan məhrum etmə «təhlükəsizlik tədbirləri» adı altında verilir. Təhlükəsizlik tədbirləri sırasına «əmlak müsadirəsi» və «mənfəət müsadirəsi» də daxil edilmişdir.

Türkiyənin qüvvədə olan cəza qanunvericiliyində cəzanın sistemində «pul cəriməsi» də nəzərdə tutulur. Pul cəriməsi beş gündən az və yeddi yüz otuz gündən çox olmamaqla müəyyən edilir. Cərimə kəsilərkən təyin edilən günlərin sayı cərimənin bir günlük məbləğinə vurulur. Qanunla bir günlük cərimənin pulla ifadə olunan miqdarı ən azı iyirmi və ən çoxu yüz türk lirəsi məbləğində müəyyən edilmişdir. Hakim cərimə növündə cəza təyin edərkən məhkumun vəziyyətini nəzərə alıb hökmdə cərimənin icrasını bir il təxirə sala bilər, yaxud da cərimənin hissə-hissə ödənilməsi üçün qərar verə bilər.

Türkiyənin qüvvədə olan cəza qanunvericiliyinin üçüncü fəsli cəza təyini məsələlərini, cəzanı yüngülləşdirən halları tənzimləyir. Qanunun dördüncü fəslində cinayət məsuliyyətindən və cəzadan azad etmə, müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə, əfv, cəzadan azad etmə və s. institutları tənzimləyən normalar nəzərdə tutulur.

10. Türkiyənin Cəza Qanununda şərti məhkum etmə institutu təsbit edilmişdir. Şərti məhkum etmə cəza növü kimi nəzərdə tutulur. Qanunun 51-ci maddəsinin göstərişinə görə törədilən cinayətə görə iki il və ya daha az müddətli həbs cəzasına məhkum edilmiş şəxsə cəza şərti olaraq tətbiq edilə bilər. Bu müddətin yuxarı həddi əməli törədən vaxt on səkkiz yaşına çatmamış və ya altımış beş yaşı tamam olmuş şəxslər üçün üç ildir. Şərti məhkum etmənin tətbiq edilməsi üçün şəxsin:

a) daha əvvəl qəsdən törədilmiş cinayətə görə üç aydan çox həbs cəzasına məhkum edilməməsi;

b) cinayəti törətdikdən sonra istintaq müddətində səmimi peşmançılığa əsasən məhkəmənin onun təkrar cinayət törətməyəcəyi qənaətində olması lazımdır.

Şərti məhkum etmə zərərçəkənə və ya dövlətə vurulmuş zərərin eynilə aradan qaldırılması, ziyan çəkən obyektin cinayətdən əvvəlki hala gətirilməsi və ya ödənilməsi şərti ilə həyata keçirilir. Bu şərt yerinə yetirilənə qədər cəzaçəkmə müəssisəsində cəzanın çəkilməsi davam edir. Göstərilən şərt yerinə yetirildikdə, hakimin qərarı ilə məhkum cəzaçəkmə müəssisəsindən buraxılır.

Şərti məhkum edilən şəxs barəsində bir ildən az, üç ildən çox olmamaqla, sınaq müddəti müəyyən edilir. Bu müddətin yuxarı həddi, məhkum olunanın cəza müddətindən az ola bilməz.

Sınaq müddəti ərzində məhkum üzərinə iş, təhsil və s.-lə bağlı öhdəliklər qoyulur. Məhkum islah olmaq yolu ilə getməlidir. Hər üç aydan bir şərti məhkum edilənin davranışı ilə bağlı hakimə məlumat verilir.

Qanuna görə məhkəmə, məhkumun şəxsiyyətini və sosial vəziyyətini nəzərə alaraq sınaq müddətində onun üzərinə başqa mükəlləfiyyətlər qoymaya da bilər, habelə onun üzərində nəzarət edən rəhbər təyin etməyə də bilər.

Məhkum sınaq müddətində qəsdən cinayət törətdikdə və ona həvalə

edilmiş mükəlləfiyyətləri yerinə yetirmədikdə onun barəsində şərti məhkum etmə ləğv edilə və şəxs cəzanı çəkmək üçün cəzaçəkmə müəssisəsinə qaytarıla bilər.

Məhkum barəsində müəyyən edilən sınaq müddəti ərzində əgər o islaholma yolu ilə getmişdirsə, ona həvalə edilən mükəlləfiyyətləri yerinə yetirmişdirsə, sınaq müddətinin tamamlanması ilə o, cəzasını çəkmiş sayılır və artıq məhkum olunan şəxs hesab edilmir.

11. Türkiyənin Cəza Qanununda əmlak müsadirəsi deyildikdə, təqsirkarın mülkiyyətində olmayan, qəsdən törədilən cinayətin icra edilməsində istifadə edilən və cinayət yolu ilə əldə edilən əmlakın müsadirəsi nəzərdə tutulur.

Göstərilən əmlak əldən çıxdıqda, işləndikdə və ya başqa səbəbdən onun müsadirəsi mümkün olmadıqda həmin əmlakın dəyəri miqdarında pul müsadirə edilir.

Cəza Qanununa görə hazırlanması, əldə edilməsi, daşınması və alınıb-satılması cinayət sayılan əmlak müsadirə edilir. Qanunun göstərişinə görə bir əmlakın müəyyən hissələri müsadirə edilməlidirsə, həmin hissələrin müsadirəsi bütöv əmlaka zərər verməzsə, göstərilən hissələr müsadirə edilir.

Qanuna görə bir neçə nəfərə məxsus əmlakla bağlı müsadirədə yalnız cinayətdə iştirak edən şəxsin payı müsadirə edilir. Qanunsuz yolla əldə edilən əmlakdan istifadə etməklə mənfəət əldə edilirsə, belə mənfəət zərərçəkənin deyil, dövlətin nəfinə müsadirə edilir.

Türkiyənin Cəza Qanununa görə əmlak müsadirəsi altında əslində «xüsusi müsadirə» nəzərdə tutulur.

12. Türkiyənin Cəza Qanununun 61-63-cü maddələri cəza təyin etmə ilə bağlı müddəaları nəzərdə tutur. Belə müddəaların bir qismi 61-ci maddənin 1-10-cu hissələrində sadalanır. Lakin Cəza Qanununun 61-ci maddəsinin müddəaları məntiqi tələblər zəmnində konkretləşdirilməmişdir ki, belə vəziyyət qeyd edilən normanın praktikada tətbiqini xeyli çətinləşdirir.

Cəza Qanununun 61-ci maddəsində cəza təyin etmənin qanunçuluq, ədalətlilik, cəzaya qənaət, cəzanın fərdiləşdirilməsi kimi prinsiplər birbaşa yaxud da dolayısı təsbit edilmişdir. Bu normada cinayəti törədənin şəxsiyyətinin nəzərə alınmasına, cəzanı ağırlaşdıran hallara dair aydın göstəriş yoxdur. Qanunun 62-ci maddəsində cəzanı yüngülləşdirən halların təyin edilən cəzalara təsir həddinə dair göstəriş vardır. Qanunun 62-ci maddəsinin 1-ci hissəsinin göstərişinə görə işdə yüngülləşdirici hallar vardırsa, ağır ömürlük həbs cəzası əvəzinə ömürlük həbs cəzası, ömürlük həbs cəzası əvəzinə iyirmi beş il həbs cəzası verilir. Digər cəzalar altıda bir qədər azaldılır.

Məsuliyyəti yüngülləşdirən halların təyin edilən cəzanın həddinə göstərdiyi təsirin birbaşa qanunda müəyyən edilməsi çox vacib və müsbət haldır. Lakin qanunun 62-ci maddəsinin 2-ci hissəsində məsuliyyəti yüngülləşdirən hallar xeyli dərəcədə ümumi səciyyədə göstərilir, onlar konkretləşdirilmir. Görünür belə hallar məhkəmənin mülahizəsi ilə həll edilir.

Qanunda cəzanı ağırlaşdıran hallar barəsində göstəriş yoxdur.

13. Cəza Qanununun dördüncü fəslində cinayət məsuliyyətindən və cəzadan azad etmə məsələləri tənzim edilir. Qanunda məsuliyyətdən və cəzadan azad etmənin aşağıdakı növləri nəzərdə tutulur:

1) iddiaçının (zərərçəkənin) və ya təqsirləndirilənin ölümü;

2) əfv qaydasında azad etmə;

3) müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə;

4) cəzadan azad etmə;

5) təhqiqatı və tətbiqi şikayətlə bağlı olan cinayətlər törədildikdə barışma.

Türkiyənin Cəza Qanununda amnistiya aktı nəzərdə tutulmur. Qanunda əfv aktının iki növü – ümumi əfv və xüsusi əfv aktı fərqləndirilir. Ümumi əfv aktına görə ictimai ittihama xitam verilirsə cəzalar bütün nəticələri ilə birlikdə aradan qalxır.

Xüsusi əfv aktında cəzanı icra edən orqanlara həbs cəzasının çəkilməsinə xitam vermək, həbs cəzasını azaltmaq, yaxud da belə cəzanı cərimə ilə əvəz etmək səlahiyyəti verilir.

14. Türkiyənin Cəza Qanununa görə müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməyə aşağıda sadalanan müddətlərin keçməsi ilə yol verilir. Belə müddətlər Qanunun 66-cı maddəsində müəyyən edilir:

a) ağır həbs cəzası müəyyən edilən cinayətin törədildiyi gündən otuz il keçdikdə;

b) ömürlük həbs cəzası müəyyən edilən cinayətin törədildiyi gündən iyirmi il keçdikdə;

c) iyirmi ildən az olmayan müddətə həbs cəzası müəyyən edilən cinayətin törədildiyi gündən iyirmi il keçdikdə;

ç) beş ildən artıq və iyirmi ildən az həbs cəzası müəyyən edilən cinayətin törədildiyi gündən on beş il keçdikdə;

d) beş ildən artıq olmayan həbs cəzası və ya cərimə cəzası müəyyən edilən cinayətin törədildiyi gündən səkkiz il keçdikdə.

Əməli törədərkən on iki yaşı tamam olmuş, ancaq on beş yaşa çatmamış şəxslər üçün bu müddətlərin yarısının, on beş yaşı tamam olmuş, ancaq on səkkiz yaşa çatmamış şəxslər haqqında isə həmin müddətlərin üçdə ikisinin keçməsi ilə cinayət məsuliyyətinə cəlb etmə aradan qalxır.

Göründüyü kimi, müddətin keçməsiylə məsuliyyətdən azad etmədə məhkəmə mülahizəsiylə həll edilə bilən məsələlərə yer qalmamışdır. Qanunun belə mövqeyini biz məqbul sayırıq.

Zənn edirik, Türkiyə Respublikasının yeni Cəza Qanunu ümumbəşəri dəyərlərə sadiq qalmış, dünyanın qabaqcıl ölkələrinin mütərəqqi qanunvericilik ənənələrini, müasir cinayət hüquq nəzəriyyəsinin işləyib hazırladığı qabaqcıl baxışları və istiqamətləri özündə təcəssüm etdirmişdir. Cəza Qanunu hüquq institutlarının işlənmə səviyyəsinə və qanunvericilik texnikasının keyfiyyətinə görə də diqqəti cəlb edir. Bütün bu cəhətlərinə görə Türkiyə Respublikasının yeni Cəza Qanunu dövrümüzün ən yaxşı cinayət qanunları səviyyəsində dayanır.

## ƏDƏBİYYAT

1. Türk Cəza Kanunu və ilgili mevzuat. İstanbul, 1992.
2. Terk Cəza Kanunu. Ankara, Seçkin Yayın evi, 2005.
3. Решетников Ф.М. Правовые системы стран мира. Справочник. М., Юридическая литература, 1993.
4. Уголовный кодекс Турции. СПб., Юридический Центр Пресс, 2003.

## ОБ ОСНОВНЫХ ОСОБЕННОСТЯХ ОБЩЕЙ ЧАСТИ УГОЛОВНОГО ЗАКОНА ТУРЦИИ 2004 ГОДА

**Ф.Ю.САМАНДАРОВ**

### РЕЗЮМЕ

Статья посвящена основным особенностям Общей части нового Уголовного Закона Турции. Правовая система Турции входит в романо-германскую правовую семью. Уголовный Закон, принятый в 2004 году и вступивший в силу с 1 апреля 2005 года, является вторым по счету за республиканский период правления Турции. Закон состоит из двух книг, включающих 6 разделов, 36 глав и 345 статей. Первая книга содержит положения, регулирующие вопросы Общей части, которая состоит из двух разделов, 5 глав и 75 статей. Вторая книга Закона определяет перечень деяний, признанных преступными.

Новый Уголовный Закон Турции существенно отличается от предыдущего Уголовного Кодекса 1926 года как по строению, так и по содержанию. Так, в новом Законе вопросы уголовной ответственности и ее дифференциации, назначения наказания более усовершенствованны. Тяжкое пожизненное заключение, пожизненное заключение, штраф, конфискация имущества, лишение прав определены как основные виды наказания, а смертная казнь исключена из системы наказаний. Закон также определяет основные начала назначения наказания, основания для освобождения от уголовной ответственности или наказания.

Уголовный Закон Турции 2004 года сохранил приверженность прогрессивным принципам и общечеловеческим ценностям.

## ABOUT THE MAİN FEATURES OF THE GENERAL PART OF THE CRİMİNAL LAW OF TURKEY OF 2004

**F.J.SAMANDAROV**

### SUMMARY

The article is dedicated to the main features of the General Part of the new Criminal Law of Turкey. The legal system of Turкey is included in the Romance-German legal system.

The Criminal Law adopted in 2004 and which has entered into force since April 1, 2005, is second under the score for the republican season of board of Turкey. The Law consists of two booкs including 6 sections, 36 chapters and 345 articles. The maiden booк contains rules adjusting problems of the General Part, which one consists of two sections, 5 chapters and 75 articles. The second booк of the Law determines of acts recognized criminal. The new Criminal Law of Turкey essentially differs from the previous Criminal Code of 1926 both on a structure, and under the contents. The problems of the criminal liability and its differentiation, awarding punishment are more advanced in the new Criminal Law. Gross imprisonment for life, imprisonment for life, fine, confiscation of property, deprivation are the main views of punishment, and the capital punishment is eliminated from the system of penalties. The law also determines the fundamental principles of awarding punishment, basis for redemption of the jriminal liability or punishment.

The jriminal law of Turkey of 2004 has kept ajjurajy to progressive prinjiples and universal values.